# Dövlət rüsumu haqqında
# Azərbaycan Respublikasının Qanunu

**Maddə 24. Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 24.1. Giriş-çıxış və tranzit gedişinə görə: | |
| 24.1.2. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid kvota ilə müəyyən edildiyindən artıq olduqda ödəniş haqqı: | |
| 24.1.2.1. yük avtomobilləri üçün | hər bir icazə üçün 100 ABŞ dolları |
| 24.1.2.2. sərnişin avtobusları üçün | hər bir icazə üçün 50 ABŞ dolları |
| 24.1.3. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olmayan yük və sərnişin avtomobil daşıyıcıları üçün: | |
| 24.1.3.1. yük avtomobilləri üçün | hər bir icazə üçün 150 ABŞ dolları |
| 24.1.3.2. sərnişin avtobusları üçün | hər bir icazə üçün 75 ABŞ dollarıi |
| 24.2. Xarici avtomaşınların Azərbaycan Respublikası ərazisində yüklənməsinə görə. | hər bir icazə üçün 100 ABŞ dolları |
| 24.3. Üçüncü ölkəyə və üçüncü ölkədən daşımalar üçün. | hər bir icazə üçün 600 ABŞ dolları |
| 24.4. Xarici nəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə yüksüz daxil olması üçün: | |
| 24.4.1. yük avtonəqliyyat vasitələrinin yüksüz daxil olması üçün; | hər bir icazə üçün 350 ABŞ dolları |
| 24.4.2. avtobusların sərnişinsiz daxil olması üçün. | hər bir icazə üçün 80 ABŞ dolları |
| 24.5. İri tonnajlı xarici yük avtonəqliyyat vasitələrinin Bakı, Sumqayıt və Gəncə şəhərlərinə daxil olması üçün | hər bir icazə üçün 25 ABŞ dolları |
| 24.6. Dövlətlərarası sazişləri pozan xarici avtomobil daşıyıcıları Azərbaycan Respublikası ərazisindən çıxdıqda. | hər bir icazə üçün 400 ABŞ dolları |

Maddə 25. **Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun tutulmasının xüsusiyyətləri**

25.1. Azərbaycan Respublikasının avtomobil daşıyıcılarına digər dövlətlərdə bu Qanunla müəyyən edilmiş dövlət rüsumundan əlavə dövlət rüsumu tətbiq edildikdə həmin dövlətlərin avtomobil daşıyıcılarına eyni qaydada dövlət rüsumu tətbiq edilir.

25.2. Xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada 2016-cı ilin iyun ayının 1-dən etibarən 3 (üç) il müddətinə bu Qanunun 24-cü maddəsi ilə nəzərdə tutulmuş dövlət rüsumundan azaddır:

25.2.1. dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi son dəmir yolu stansiyasında yük avtomobillərinə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə aşırılaraq ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda;

25.2.2. yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri ilə yüklər digər dövlətin ərazisindən Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi ilk dəmir yolu stansiyasına ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə daşındıqda

---